*Əl işdən soyumaz, ürək arzudan...*



# QƏBƏLƏ

Qəbələ rayonunun ictimai-siyasi qəzeti

*1933-cü ildən nəşr olunur*

№ 30-31 (7267-7268) ✲ Cümə, 1 may 2015-ci il ✲ Qəzet ayda 4 dəfə çıxır ✲ Qiyməti 40 qəpik

## PREZİDENTİN İŞ GÜNDƏLİYİNDƏN

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprel ayının 24-də Türkiyə Respublikasında rəsmi səfərdə olmuş, səfər çərçivəsində Canaqqala zəfərinin 100 illiyi münasibətilə keçirilən təntənəli mərasimdə iştirak etmişdir.

✲ ✲ ✲

Aprelin 25-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və ölkəmizdə işgüzar səfərdə olan Fransa Respublikasının Prezidenti Fransua Ollandın görüşü olub. Görüşdə ikitərəfli münasibətlərin hazırkı səviyyəsindən məmnunluq ifadə olunmuşdur. Sonra Prezident İlham Əliyevin və Prezident Fransua Ollandın iştirakı ilə «Azərbaycan Respublikasının Təhsil naziri ilə Fransa Respublikasının Milli Təhsil, ali təhsil və tədqiqat naziri arasında Azərbaycan-Fransız Universitetinə dair Niyyət Məkubu» imzalanıb.

✲ ✲ ✲

Prezident İlham Əliyev Qazaxıstan Respublikasının Prezidenti Nursultan Nazarbayevi prezident seçkilərində inamlı qələbəsi münasibətilə telefonla təbrik etmiş, ona ali dövlət fəaliyyətində yeni-yeni uğurlar, möhkəm cansağlığı arzulamışdır.

✲ ✲ ✲

Ölkəmizin başçısı Fransanın Yəhudi İnstitutlarının Təmsilçilik Şurasının Prezidenti Rocer Çükermanın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. Görüşdə İlham Əliyev belə görüşlərin Azərbaycan-Fransa əlaqələrinin daha da genişləndirilməsi baxımından əhəmiyyətli olduğunu vurğulamışdır.

✲ ✲ ✲

Azərbaycan Prezidenti İlham Əliyev Malta Respublikasının baş naziri Cozef Muskatı qəbul edib. Görüşdə Azərbaycan ilə Malta arasında ikitərəfli münasibətlərin uğurla inkişaf etdiyi qeyd olunmuşdur.

✲ ✲ ✲

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Latviyanın sabiq Prezidenti xanım Vayra Vike-Freyberqanı və İsgəndəriyyə Kitabxanasının direktoru İsmail Serageldini qəbul etmişdir. Qəbulda Azərbaycanın böyük şairi Nizami Gəncəvinin adını daşıyan Mərkəzin artıq vacib beynəlxalq instituta çevrildiyi, ölkələr arasında dostluğun və qarşılıqlı anlaşmanın daha da möhkəmləndirilməsi işinə verdiyi töhfə xüsusi qeyd edilmişdir.

# *“Bakı-2015” ilk Avropa Oyunları məşəlinin yandırılması mərasimi keçirilib*

## *Mərasimdə Azərbaycan Prezidenti İlham Əliyev iştirak edib*



«Bakı-2015» ilk Avropa oyunlarının özünəməxsus ayinləri və mərasimləri var. Məlumdur ki, ölkəmizin tarixində od, alov, məşəlin milli adətənənələrimizdə özünəməxsus yeri vardır. Təsadüfi deyil ki, hələ çox-çox qədim zamanlardan Azərbaycan odlar ölkəsi adlanır.

Qeyd edək ki, Olimpiya Oyunlarının da bir çox ənənələri, mərasimləri və ayinləri olmuşdur. Olimpiya məşəlinin yandırılması da məhz belə sirli-sehirli ənənələrlə başlamışdır. Ənənəyə görə bu alov Yunanıstanın Afina şəhəri yaxınlığında yerləşən Olimpiya məbədindən götürülür. Sonra xüsusi seçilən oğlan və qızlar bu məşəli Olimpiya Oyunları keçirilən şəhərə doğru qaca-qaca bir-birinə ötürərək irəliləyirlər. Son məqamda məşəl adlı-sanlı bir idmançıya verilir, o stadiona daxil olub Olimpiya oyunlarının məşəlini yandırır. Bu məşəl yarışların açılışından bağlanışına qədər yanır.

Aprelin 26-da Azərbaycanın və dünyanın idman tarixində yeni əlamətdar hadisə baş verdi. Bakıda birinci Avropa Oyunlarının məşəli alovlandırıldı.

Mətbuatdan məlum olduğu kimi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı, birinci Avropa Oyunları Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva, ailə üzvləri və Avropa Olimpiya Komitəsinin prezidenti Patrik Hikki mərasimdə iştirak ediblər.

Artıq ölkəmizin müstəqillik tarixində ev sahibliyi edəcəyi mötəbər tədbir-birinci Avropa Oyunları beynəlxalq idman ictimaiyyətinin diqqət mərkəzindədir. Aprelin 26-sı ilk Avropa Oyunlarının həyəcanının başlanğıc günü kimi tarixə düşdü. Olimpiya ənənəsinə uyğun olaraq, estafet qədim od məbədi olan Atəşgahdan başladı. Birinci Avropa Oyunlarının məşəli 47 gün ərzində Azərbaycanın hər bir guşəsini gəzib-dolaşaraq, Oyunların açılış mərasimində Bakı Olimpiya Stadionuna gətiriləcək.

Mərasimdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Avropa Olimpiya Komitəsinin prezidenti Patrik Hikki çıxış edərək müstəqillik illərində Azərbaycanda idmanın sürətli inkişafından, ilk Avropa Oyunlarına qısa zaman kəsiyində görülən hazırlıq işlərindən geniş söhbət açmışlar. Cənab Prezident İlham Əliyev demişdir: “Azərbaycan əsrlər boyu sivilizasiyalararası, millətlərarası, dinlərarası dialoqun aparılması üçün öz imkanlarını ortaya qoyur. Azərbaycanda bütün xalqların, bütün dinlərin nümayəndələrinin birgə yaşaması, bir ailə kimi yaşaması nadir təcrübədir”. Cənab Prezident çıxışının sonunda Avropa Oyunlarında iştirak edəcək bütün idmançılara uğurlar arzulamışdır. İlham Əliyev çıxışını bu sözlərlə bitirmişdir: “Qoy güclü qalib gəlsin! Yaşasın Azərbaycan!”.

Daha sonra Prezident İlham Əliyev ilk Avropa Oyunlarının Təşkilat Komitəsinin sədri, birinci xanım Mehriban Əliyevanın və Avropa Olimpiya Komitəsinin prezidenti Patrik Hikkinin müşayiəti ilə Oyunların məşəlini alovlandırdı.

Dövlətimizin başçısı məşəli “Bakı-2015” Avropa Oyunlarının ilk məşəlçisi, Olimpiya çempionu Rəfiqə Şabanovaya verdi.

Beləliklə də Birinci Avropa Oyunlarının məşəlinin səyahəti başladı. Estafetə 1000 nəfərdən çox məşəlçi cəlb olunub və hər regionda “Alov festivalı”nın keçirilməsi nəzərdə tutulub. Məşəl yer üstündə avtobus, funikulyor, velosiped, yer altında Bakı metrosu, suda qayıq, havada isə təyyarə ilə daşınacaq. Məşəl iyunun 8-də paytaxtdakı idman arenalarında, 9-da isə İçərişəhərdə gəzdiriləcək. İyunun 10-u məşəl proqramının son günü olacaq və Bakıya gətiriləndək təxminən 5500 kilometr məsafə qət edəcək. Alovun səyahəti May ayının 26-da isə Qəbələyə çatacaq. 660 millimetr hündürlüyü olan məşəlin gövdəsi “Bakı-2015” brendində yer alan nar ağacını xatırladır. Alovu qoruyan mis başlıq da nar formasındadır. Onun 50 çəyirdəyi Oyunlarda iştirak edən ölkələrin sayını təmsil edir.

Sonra birinci Avropa Oyunlarının məşəlinin alovlandırılması münasibətilə ziyafət təşkil olundu.

Daha sonra birinci Avropa Oyunlarının məşəli ilə xatirə şəkilləri çəkdirildi.

**N. ATAKİŞİYEV.**